**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru cənab Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim,**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan təhsili sahəsində əvəzsiz rola malik Dövlət İqtisad Universitetinin yaranmasının 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan təhsilinin inkişafı naminə ali vəzifənizin yerinə yetirilməsi istiqamətində çətin və şərəfli fəaliyyətinizdə Sizlərə uğurlar arzulayıram.

Əsası 1930-cu ildə qoyulmuş bu təhsil ocağı regionda iqtisad elminin dərindən öyrədən fundamental tədris mərkəzidir. Cənubi Qafqazın iqtisadyönümlü ən böyük universiteti olan UNEC ölkəmizdən kənarda filialı olan yeganə ali təhsil müəssisəsidir. Ölkəmizdə sənaye, kənd təsərrüfatı, maliyyə, vergi sistemi, ticarət sahəsində ixtisaslı kadrların yetişdirilməsində mühüm rol oynayır. Hazırda dörd dildə ali təhsil xidmətləri təqdim edən UNEC ikili diplom proqramları həyata keçirir. Bu gün Avropa və Amerika təhsil sisteminə uyğunlaşdırılmış, bütün təhsil pillələri ilə təhciz edilmiş universitet son illər dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq edərək təhsil sisteminə öz yüksək töhfəsini verməkdədir.

Siz cənab Prezident tərəfindən Universitetə rektor təyin olunduqdan sonra apardığınız uğurlu təhsil siyasəti danılmazdır. Məzunlarınız üçün aparıcı dövlət qurumlarında və özəl şirkətlərdə təcrübə və işədüzəlmə imkanları yaratmağınız bu gün Azərbaycan təhsilinə və gəncliyinə ən böyük töhfələrinizdəndir. Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiya olunmasında var-gücünüzü əsirgəmirsiniz.

İqtisad elminin dərindən öyrənilməsində, yüksək ixtisaslı kadrların yetişdirilməsində əvəzsiz rolu olan bu universitetin məzunu olmaqdan böyük şərəf və fəxarət duyuram. Universitet illərində öyrənib mənimsədiyim bilik və bacarıqlarımı bugünkü və gələcək iş fəaliyyətimdə tətbiq etməkdəyəm. Azərbaycan ali təhsilinin xəritəsindəki mövqeyinizin güclənməsini hədəflədiyiniz fəaliyyətinizdə bol-bol uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək bir daha Sizləri yubiley münasibətilə təbrik edir, Sizə və universitetin professor-müəllim heyətinə öz təşəkkürümü bildirir, ən yüksək ehtiramımı çatdırıram.

***Dərin hörmətlə,***
***Vüqar Novruzov***